**04.05.2023: xəbər**

**Fulbrayt tədqiqatçıları üçün tədbir**

2023-cü il mayın 2-də Xəzər Universitetinin "Neftçilər" kampusunda Nailəxanım Mədəniyyət Mərkəzində Fulbrayt qonaq tədqiqatçıları üçün qarşılama mərasimi təşkil edildi. Tədbirin məqsədi onları universitet heyətinə təqdim etmək idi.
Dr. Qaisar Sultana inklüziv təhsil sahəsində böyük təcrübəyə malikdir. Proqram çərçivəsində o, Humanitar, təhsil və sosial elmlər fakültəsinin Təhsil departamentində inklüziv təhsil sahəsində təlimlər keçir.
Hazırda Dr. Elnur Gajiev də Xəzər Universitetinin qonaq tədqiqatçısıdır. O, Humanitar, təhsil və sosial elmlər fakültəsinin Psixologiya departamentində Sənət terapiyası və Menecment psixologiyası fənlərindən mühazirə söyləyir.
Tədbirdə, eyni zamanda, Eastern Kentucky Universitetinin professoru Ronald Wayne Smith də iştirak etdi. O, tələbələrin ingilis dilində danışıq bacarıqlarını inkişaf etdirmək məqsədilə danışıq klubları təşkil edir.
Xəzər Universitetinin rektoru İradə Xəlilova və Beynəlxalq əlaqələr üzrə prorektor Vlad Vernygora qısa nitq söylədilər. Sonra qonaq tədqiqatçılar öz xoş təəssüratlarını bölüşdülər. Tədbirdə Xəzər Universitetinin Kamera orkestri bədii rəhbər - universitetin Musiqi və incəsənət departamentinin müdiri Zülfiyyə Sadıqovanın müşayiəti ilə əsərlər səsləndirdilər. Humanitar, təhsil və sosial elmlər fakültəsinin tələbəsi Elvin Əliyev musiqi ifa etdi. Qonaqlar üçün çay süfrəsi açıldı. Tədbirin sonunda rektoru İradə Xəlilova qonaq tədqiqatçılara hədiyyələr təqdim etdi.
Qeyd edək ki, ABŞ Dövlət Departamentinin Təhsil və Mədəniyyət İşləri Bürosunun proqramı olan Fulbrayt təqaüd proqramı ABŞ-ın Bakıdakı səfirliyi tərəfindən idarə olunur.

**Event for Fulbright Scholars**

On May 2, 2023, a welcoming ceremony for Fulbright visiting researchers was organized at the Nailekhanim Cultural Center in the "Neftchilar" campus of Khazar University. The purpose of the event was to present them to the university staff.
Dr. Qaisar Sultana has extensive experience in the field of inclusive education. Within the framework of the program, she conducts training in the field of

inclusive education at the Department of Education of the School of Humanities, Education and Social Sciences.

Currently, Dr. Elnur Gajiev is also a visiting researcher at Khazar University. He lectures on Art Therapy and Management Psychology in the Department of Psychology of the School of Humanities, Education and Social Sciences.

Ronald Wayne Smith, professor of Eastern Kentucky University, also participated in the event. He organizes conversation clubs to improve students' English speaking skills.

Rector of Khazar University Irada Khalilova and vice-rector for International Relations Vlad Vernygor delivered short speeches. Then the visiting researchers shared their good impressions. Khazar University Chamber Orchestra performed works accompanied by art director Zulfiyya Sadigova, head of the University's Department of Music and Arts. Elvin Aliyev, the student of the School of Humanities, Education and Social Sciences, performed music. A tea party was held for the guests.

At the end of the event, rector Irada Khalilova presented gifts to the guest researchers.

Note that the Fulbright scholarship program, which is a program of the US Department of State's Bureau of Educational and Cultural Affairs, is administered by the US Embassy in Baku.








NAUTICA






AZERBAIJAN













